# Biz təkcə qələbəyə yox, həm də tarixi ədalətin bərpasına nail olduq



***2020**-ci ilin payızı bizim üçün, sözün həqiqi mənasında, tarix boyu unudulmayacaq bir fəsil oldu. Çünki biz həmin fəslin ilk ayında – sentyabrın 27-də torpaqlarımızın böyük bir hissəsini 27 il işğal altında saxlamış qaniçən, qəddar və terrorçu qonşumuzun növbəti hücumlarına, məhz onların nə zamansa almalı olduqları cavabı verməyə başladıq. Həmin payızda biz Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin dilindən "Bu gün qədim Azərbaycan şəhəri olan Şuşa erməni işğalından azad edilmişdir!" ifadəsini eşitdik. Payızın son ayında – noyabrın 10-da, gecə yarısı isə dövlət başçımız xalqı müjdələdi ki, bir neçə saat bundan əvvəl Ermənistan dövləti kapitulyasiya aktını imzalamışdır.*

> *Müharibə bizim gücümüzü göstərdi, əyilməz iradəmizi göstərdi, birliyimizi göstərdi. Müharibə rəmzinə, qələbə rəmzinə çevrilən "dəmir yumruq" öz gücünü göstərdi. Bu, həm birlikdir, həm gücdür. Cəmiyyətimizdə birlik də var, ölkəmizin gücü də var və həmişə olacaq. Əgər kimsə Ermənistanda bu gün revanş hissi ilə yaşayırsa, böyük səhv edir. O 44 günlük müharibəni onlar heç vaxt unutmasınlar. Bundan sonra əgər kimsə Azərbaycan xalqını təhqir etməyə çalışsa, elə dərsini alacaq ki, o 44 günlük müharibə onun yanında yalan olacaq.*
>
> **Azərbaycan Respublikasının**
> **Prezidenti İlham Əliyevin xalqa**
> **31 dekabr 2020-ci il tarixli müraciətindən**

Nəinki mən və ya digər yaşıdlarım, hətta 80-90 yaşlı soydaşlarımız da ömrü boyu heç zaman bu qədər sevincli və qürurverici xəbər eşitməmişdilər. Tarixçilər həmin məlumatı "son iki əsrin ən möhtəşəm xəbəri", politoloqlar "Heydər Əliyev siyasətinin mükəmməl zəfəri", konfliktoloqlar "iki yüz ildən çox davam edən haqsızlıqlara son qoyulması", sadə azərbaycanlılar isə "İlham Əliyevin dünya erməniliyini məğlub etməsi" adlandırdılar. Eyni fakta müxtəlif adların verilməsi tamamilə təbiidir və həmin fikirlərin müəlliflərinin hamısı haqlıdır.

Fakt odur ki, 2020-ci il tarixdə bizim şanlı qələbəmiz ili kimi qalacaqdır. Çünki Azərbaycan dövləti, ordumuz və xalqımız 50 milyonluq soydaşlarımızın əsrlər boyu gözlədiyi günü reallığa çevirmişlər. Biz 44 gün davam edən ildırımsürətli hərbi əməliyyatlarla Ermənistanı məğlub edərək, öz doğma torpaqlarımızı işğaldan azad etmişik. Ona görə də bütöv bir xalqın əsrlər boyu arzuladığı həmin qələbə bütün soydaşlarımızın yaddaşında əbədi yaşayacaqdır.

Xatırladaq ki, XIX – XX əsrlərdə Azərbaycanın bu miqyasda hərbi-siyasi uğura imza atması qeyri-mümkün deyildi. Ancaq ulu öndər Heydər Əliyevin qoruyub saxladığı və əbədiləşdirdiyi dövlət müstəqilliyimiz bizim dünya miqyasında danışıqların tərəfi kimi tanınmağımıza imkan yaratmışdır. Çox təəssüf ki, son 30 ilə yaxın müddət ərzində danışıqların imitasiyası prosesi gedirdi. 2003-cü ildən – Prezident İlham Əliyevin birinci dəfə dövlət başçısı vəzifəsinə seçilməsindən sonra isə vəziyyət kifayət qədər yeni məcraya yönəldilmişdi. Təəssüf ki, bu məcra da münaqişənin həllinə gətirib çıxarmırdı.

Bütün dünya görür və şahidlik edirdi ki, Ermənistan bizim torpaqlarımızı işğal altında əbədi saxlamaq istəyir və danışıqlarda iştirak etməklə, sadəcə olaraq, görüntü yaradır. Elə bil, danışıqlar prosesi gedir və beynəlxalq vasitəçilər də bu prosesdə iştirak edirlər. Dövlət başçımız isə son 17 il ərzində, demək olar, bütün beynəlxalq tədbirlərdəki çıxışlarında deyirdi ki, bu məsələnin həlli bizim üçün prioritetdir. İlham Əliyev qətiyyətlə bəyan edirdi ki, biz heç vaxt qondarma "Dağlıq Qarabağ respublikası"na müstəqillik verməyəcəyik, heç vaxt orada hər hansı bir səsvermə keçirilməyəcək.

Ancaq Ermənistan rəhbərliyi nəinki torpaqlarımızı azad etmək istəmir, hətta "yeni ərazilər işğal etmək üçün yeni müharibələr"dən danışaraq, Azərbaycan dövlətinin və xalqımızın səbir kasasını daşırırdı. Bəs nə oldu? Nəticədə bu qaniçən və quldur qonşularımız saxtakarlıqlarla doldurulmuş erməni tarixinin ən rüsvayçı məğlubiyyəti ilə üz-üzə qaldılar. Nəinki Nikol Paşinyan, Serj Sarkisyan, Robert Koçaryan, hətta bu münaqişəni körükləmiş Zori Balayan, Silva Kaputikyan, Mixail Qorbaçov, Fransa parlamentariləri, Qərbdəki erməni lobbisi, ümumiyyətlə, "çörəyini erməniləri dəstəkləməkdən çıxaranlar" və Ermənistana çörək verib, ayaq üstdə saxlamağa çalışanlar yüz il bundan sonra da gözləməyəcəkləri məğlubiyyəti aldılar.

Doğrudur, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində daş daş üstündə qalmayıb. Barbar qonşularımız tariximizə, mədəniyyətimizə, iqtisadiyyatımıza, ekologiyamıza, infrastrukturumuza namərdcəsinə ağır zərbələr vurublar. Ancaq həmin zərbələr nə qədər ağır olsa da, dözdük, bizi sındırmadı. Çünki Azərbaycan dövləti qüdrətli, xalqımız iradəli, dövlət başçımız isə qətiyyətli olduğuna görə biz həmin yaraları üç-dörd ilə sağaldacağıq. Ermənilərin aldığı məğlubiyyət yarası isə üç-dörd əsrə sağalmayacaq. Çünki onlar özləri haqqında belə bir mif yaratmışdılar ki, guya, dünya miqyasında erməni ordusuna qarşı çıxa biləcək kimsə yoxdur. Amma Azərbaycan Ordusu sübut etdi ki, erməni ordusunu zəlil gününə sala biləcək silahlı qüvvələr var.

Bəs biz nəyin hesabına qaniçən düşməni zəlil edə bildik? Bu sualın cavabını cənab Prezidentin bir neçə nitq, müsahibə və müraciətində görmək mümkündür: "İqtisadi müstəqillik siyasi müstəqilliyimizi gücləndirdi, daha da cəsarətli siyasət aparıldı, müstəqil siyasət aparıldı. O siyasət ki, yalnız və yalnız Azərbaycan xalqının maraqlarına xidmət edir. Bu gün dünyada, dünya xəritəsində, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkələrin sayı o qədər də çox deyil. Azərbaycan onlardan biridir və Vətən müharibəsi bir daha onu göstərdi. Bütün çağırışlara, bütün təzyiqlərə rəğmən, biz istədiyimizə nail ola bilmişik. Düşməni torpaqlarımızdan qovmuşuq, hərbi yolla bu məsələni həll etmişik və ondan sonra qələbəmizi siyasi yollarla daha da möhkəmləndirmişik". Nəticədə isə Ermənistan rəhbərliyini kapitulyasiya aktını imzalamağa məcbur etdik.

Dövlət başçımız xatırladır ki, biz son 17 ildə böyük, nəhəng layihələri icra etdik. Həmin layihələr bizə imkan verdi ki, iqtisadi inkişaf baxımından dünyada qabaqcıl ölkələrdən birinə çevrilək. Qətiyyətlə deyə bilərik ki, Azərbaycan son 17 il ərzində iqtisadi inkişaf templərinə görə dünya miqyasında birinci yerdədir: "Eyni zamanda, biz öz siyasətimizlə Ermənistanı zəiflətməli idik və bunu gizlətmirdik. Mən bunu təkcə bu gün demirəm, 10 il bundan əvvəl demişdim, nə qədər ki, torpaqlarımız işğal altındadır, biz Ermənistanı bütün layihələrdən, bütün regional təşəbbüslərdən məhrum edəcəyik, onları təcrid edəcəyik və bunu etdik. Baxın indi Avrasiyanın enerji, nəqliyyat, kommunikasiya xəritələrinə, ölkələri birləşdirən bütün o yollar, ölkələr üçün böyük fayda gətirən layihələr Ermənistandan yan keçib. Kim bunu edib? Biz... 44 gün davam edən müharibə göstərdi kim kimdir, kim kimin dostudur. Azərbaycan xalqı bunu yaxşı görür və bilir. Mən isə bunu çoxdan bilirdim. Ona görə, bütün şər-böhtana, bütün təzyiqlərə, bütün təhdidlərə hazır idim. Bir amalım var idi – güclü dövlət yaratmaq, torpaqlarımızı işğaldan azad etmək, ədaləti bərpa etmək!"

Xatırladaq ki, dövlət başçımız Ermənistanı zəiflətmək üçün müxtəlif yollardan istifadə etdi və bütün bu yollar ictimaiyyətə təqdim edilirdi. Prezidentin xatırlatdığı kimi, biz heç nəyi hansısa məxfi formatda etməmişdik: "Demişdim ki, təcrid edəcəyik, etdik, neft kəmərləri, qaz kəmərləri, nəqliyyat yolları Ermənistandan yan keçdi, telekommunikasiya xətləri Ermənistandan yan keçdi, elektroenergetika layihələri Ermənistandan yan keçdi. Ermənistan mümkün olan gəlirlərdən məhrum edildi. Digər tərəfdən, Ermənistanı beynəlxalq arenada ifşa etmək, onların işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırmaq başlıca vəzifələrimizdən biri idi və buna nail olduq".

Dövlət başçımız xalqa müraciətlərində xatırladır ki, son 17 il ərzində, demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyən qərar, qətnamələr qəbul ediblər. BMT Baş Assambleyası, hətta Avropa Şurası və Avropa Parlamenti kimi hər zaman anti-Azərbaycan mövqeyində dayanan təşkilatlar da məcbur olub münaqişə ilə bağlı həqiqəti əks etdirən qətnamələr qəbul etmişlər: "Biz Qoşulmama Hərəkatına üzv olduq. Yadımdadır, o vaxt bəziləri bunu səhv addım kimi qiymətləndirirdi. Ancaq mən bilirəm ki, bu, düzgün addım idi. Üzv olan kimi, dərhal 120 ölkənin dəstəyi ilə münaqişəyə dair qətnamə qəbul etdirdik – bizim maraqlarımıza xidmət edən qətnaməni. Bu gün Qoşulmama Hərəkatının sədri kimi öz sözümüzü dünya miqyasında deyirik. Onu da bir daha demək istəyirəm ki, müharibə zamanı BMT Təhlükəsizlik Şurasında münaqişə ilə bağlı bizə sərf etməyən qərəzli anti-Azərbaycan təşəbbüslərinin qarşısının alınmasında Qoşulmama Hərəkatına üzv ölkələr öz sözünü dedi. Bu təşəbbüs baş tutmadı".

İqtisadiyyatın inkişaf etdirilməsi, siyasi-diplomatik fəaliyyətimiz, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər, aparılan köklü islahatlar və ən başlıcası, ölkədə bərqərar edilmiş xalq – iqtidar birliyi 44 günlük müharibədə öz nəticələrini verdi. Biz Ermənistan ordusunu darmadağın etdik. Qəhrəman əsgər və zabitlərimiz Azərbaycanın gücünü göstərdilər. Düzgün planlaşdırılmış və həyata keçirilmiş əməliyyatlar sayəsində, texniki imkanlardan istifadə edərək, igid övladlarımızın qəhrəmanlığına, rəşadətinə söykənərək mümkün olmayanı etdik, düşməni məhv etdik, düşmən ağ bayraq qaldırdı, diz çökdü.

Dövlət başçımızın dediyi kimi, bu, dünyanın gözü qarşısında baş verdi. Amma heç kimi bizi dayandıra bilmədi: "Demişdim ki, sona qədər gedəcəyik, tarix versinlər bizə, tarix versinlər ki, işğalçı Ermənistan dövləti bizim torpaqlarımızdan nə vaxt çıxacaq. Tarix veriləndən sonra biz hərbi əməliyyatlarımızı dayandırdıq".

Otuz il davam edən mübarizənin yekunu isə ondan ibarət oldu ki, biz təkcə qələbəyə yox, həm də tarixi ədalətin bərpasına nail olmuşuq.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*